EHEAROME2020

# Nazirlərin Roma Bəyanatı

ƏLAVƏ II

EUROPEAN
Higher Education Area

bologna process

ITALIAN BFUG SECRETARIAT
2018-2020

Translated within the Erasmus+ project “IN-GLOBAL Enhancing Knowledge of the EHEA and Global Dialogue” in 2023.

The original version of the Rome Communiqué and its annexes are available on the website of the European Higher Education Area:
https://ehea.info/page-ministerial-conference-rome-2020

Co-funded by
the European Union

Funded by the European Union. Views and opinions expressed are however those of the author(s) only and do not necessarily reflect those of the European Union or the European Education and Culture Executive Agency (EACEA). Neither the European Union nor EACEA can be held responsible for them.

# AATM-də Ali Təhsilin Sosial Ölçüsünün Gücləndirilməsinə dair Prisniplər və Tövsiyələr

Sosial Ölçü üzrə BTİQ Məşvərət Qrupu 1 tərəfindən hazırlanıb

## Giriş

2018-ci il Paris Bəyanatı AATM-in sosial ölçüsünün təkmilləşdirilməsi siyasətini müəyyənləşdirmək və tətbiq etmək üçün üzv dövlətlərin istiqamətləndirilməsinin vacibliyini qəbul etdi. Bu sənəd ali təhsildə sosial ölçünün daha da inkişaf etdirilməsi üçün fundamental əhəmiyyət kəsb edən əsas prinsiplərin və tövsiyələrin başlıca istiqamətlərini əks etdirir. Bu sənəd 2007-ci il London Bəyanatında verilmiş sosial ölçü anlayışının tərifini əsas götürür; bu tərifə görə ali təhsilin bütün səviyyələrinə qəbul olan, ali təhsildə iştirak edən və ali təhsil müəssisəsini bitirən tələbə kontingentinin tərkibi AATM ölkələrində cəmiyyətin geniş heterogen sosial tərkibinə uyğun olmalıdır. Sosial Ölçü üzrə Məşvərət Qrupu yuxarıda qeyd olunan tərif çərçivəsindən kənara çıxaraq onu daha da genişləndirmişdir; qeyd olunur ki, sosial ölçü ali təhsildə ədaləti, müxtəlifliyi təşviq edən və yerli icmaların ehtiyaclarına cavab verən inklüziv mühitin yaradılmasını əhatə edir.

Bu sənəddəki prinsiplər və tövsiyələr nazirlərin sosial ölçünü daha da gücləndirmək, eyni zamanda, ali təhsildə keyfiyyətin yüksəlməsinə yardım etmək üçün bir vasitə kimi qəbul etdikləri "Bərabərlik və Böyümə üçün İştirakın genişləndirilməsi"[1] adlı AATM 2020 strategiyasını tamamlayır. Sosial ölçü əlçatanlıq, bərabərlik, müxtəliflik prinsiplərini birləşdirməli və ali təhsillə bağlı bütün qanunlara, siyasətlərə və təcrübələrə elə formada daxil edilməlidir ki, ali təhsilə giriş, ali təhsildə iştirak, irəliləmə və ali təhsilin başa çatdırılması tələbələrin fərdi xüsusiyyətlərindən və ya birbaşa iradəsindən kənar şərtlərlə deyil, ilk növbədə, onların bacarıqlarından asılı olsun. Bu konsepti əsas götürərək, dövlət orqanları lokal səviyyədə implementasiya proseslərinin başlanmasına səbəb olacaq hüquqi, maliyyə, inzibati və informasiya çərçivəsini təklif edərək bu Prinsiplərin və Tövsiyələrin həyata keçirilməsini dəstəkləməlidirlər. Bu çərçivə həssas, əlverişsiz şərtlərdə olan və zəif təmsil olunan tələbələrə[2] xüsusi dəstəyi təmin edən, eyni zamanda, tələbə kontingentinin və ali təhsil müəssisələrində çalışan heyətin qarşılıqlı fayda əldə edə biləcəyi daha geniş tədbirləri və siyasətləri önə çıxaracaq inklüziv strategiyaları təşviq edəcəkdir.

Həssas, əlverişsiz şərtlərdə olan və zəif təmsil olunan qrupların ali təhsildə daha geniş təmsil olunması məhdudlaşan sosial rifahın təmin olunması, yaxşılaşan sağlamlıq nəticələri və genişlənən ictimai iştirak baxımından daha geniş faydalar gətirir. Bütövlükdə, bu - daha geniş faydalar sosial ədalətin, ictimai rifahın, ictimai məsuliyyətin və sosial mobilliyin üstünlük təşkil etdiyi demokratik, bütöv cəmiyyətləri dəstəkləyir. Kvalifikasiyalı məzunların vətəndaşların daha geniş kütləsini əhatə etməsi daha yaxşı məşğulluq perspektivləri, daha yüksək qazanc əldə edilməsi və ali təhsilin üstünlüklərinin gələcək nəsillərə və onların yerli icmalarına ötürülməsi deməkdir. Ali təhsilin sosial ölçüsünü yaxşılaşdırmaq üçün bütöv və qabaqlayıcı yanaşmanın tətbiq olunması – AATM tərəfindən qəbul edilmiş öhdəlikləri yerinə yetirməkdən əlavə, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün əldə olunmuş nəticələri sürətləndirməyə xidmət edir.

Bu Prinsiplər və Tövsiyələr dövlət orqanları və ali təhsil müəssisələri tərəfindən sözügedən prinsiplərin ali təhsilin əsas missiyalarına (öyrənmə və tədris, tədqiqat, innovasiya, bilik mübadiləsi və informasiyanın yayılması, strukturların idarə olunması və idarəetmə, həmçinin ali təhsil müəssisələrinin hazırkı və gələcək tələbələrinin və heyətin gücləndirilməsi) inteqrasiya edilməsi üçün növbəti on ildə AATM-in fəaliyyət istiqamətlərini müəyyən edir

Əlçatanlığa dair müddəaların genişləndirilməsindən kənara çıxaraq və bunun əvəzinə "heç kəsi arxada

[1] http://www.ehea.info/media.ehea.info/file/2015_Yerevan/71/5/Widening_Participation_for_Equity_and_Growth_A_Strategy_for_the_Development_of_the_SD_and_LLL_in_the_EHEA_to_2020_613715.pdf linkində sənədə baxmaq olar.
[2] OHəssas, əlverişsiz şərtlərdə olan və zəif təmsil olunan tələbələrlə bağlı termin və anlayışların izahı bu sənədin sonunda verilmişdir.

buraxmamaq" konsepsiyası üzərində diqqəti cəmləşdirməklə sosial ölçünü təkmilləşdirmək cəmiyyətlərimizi və demokratiyalarımızı gücləndirməyə səy göstərərkən irəliyə doğru atılmış mühüm addımdır. Öyrənmə mühitində müxtəlifliyin dəstəklənməsi bir zərurətdir və cəmiyyətə qoyulan sərmayə kimi qiymətləndirilməlidir və dövlət orqanları təklif olunan prinsip və tövsiyələrin nəzərə alınması, milli reallıqlara uyğunlaşdırılması və tətbiq edilərək ali təhsil sistemlərimizin daha yaxşı gələcəyinin təmin olunması üçün üzərlərinə məsuliyyət götürməlidirlər.

Aşağıdakı mətndəki prinsiplər sosial ölçünün gücləndirilməsi üçün müxtəlif siyasətlərin konseptuallaşdırılmasının əsası hesab olunan yüksək səviyyəli müddəalar kimi başa düşülməlidir. Tövsiyələr siyasəti formalaşdıran şəxslərə prinsiplərin praktikada necə tətbiq edilməli olduğuna dair məsləhət vermək üçün hazırlanmış metodik göstərişlərdir. Buna görə də, bütün bu sənəd yoxlama siyahısı kimi deyil, başlıca olaraq siyasətin davamlı təkmilləşdirilməsi və milli və institutsional səviyyədə effektiv həyata keçirilməsi üçün əsas kimi qəbul edilməlidir.

## Prinsiplər

1. **Sosial ölçü AATM və Aİ səviyyəsində, həmçinin, sistem və institutsional səviyyədə ali təhsil strategiyalarının mərkəzində yer almalıdır. Ali təhsilin sosial ölçüsünün gücləndirilməsi və cəmiyyətin müxtəlifliyinin əks etdirilməsi üçün bərabərlik və inklüzivliyin təşviq edilməsi bütövlükdə ali təhsil sisteminin məsuliyyətidir və daimi öhdəlik kimi qəbul edilməlidir.**

**Tövsiyələr:**

Ali təhsilin sosial ölçüsünə dair strateji öhdəlik ya mövcud ali təhsil siyasətlərinə inteqrasiya olunmalı, ya da paralel olaraq inkişaf etdirilə bilən konkret hədəflərə uyğunlaşdırılmalıdır. Bu hədəflər bütün hazırkı və gələcək tələbələr üçün əlçatanlığın genişləndirilməsinə, təhsil almalarına və təhsili başa çatdırmalarına dəstək vermək məqsədi daşımalıdır.

Strategiyaların yaradılması prosesində dövlət orqanları, ali təhsil müəssisələri, tələbə və heyət nümayəndələri və digər əsas maraqlı tərəflər, o cümlədən sosial tərəfdaşlar, qeyri-hökumət təşkilatları və həssas, əlverişsiz şərtlərdə olan və zəif təmsil olunan qruplardan olan insanlar arasında geniş dialoq olmalıdır. Bu geniş əsaslı dialoq bərabərliyi və müxtəlifliyi təşviq edən inklüziv ali təhsil strategiyalarının yaradılmasını təmin edir və daha geniş ictimai ehtiyaclara cavab verir.

2. **Hüquqi tənzimləmələr və ya normativ-hüquqi sənədlər ali təhsilə çıxışın genişləndirilməsi, ali təhsildə iştirak və ali təhsili başa çatdırmaqla bağlı ictimai məsuliyyətlərini yerinə yetirmək üçün ali təhsil müəssisələrinə öz strategiyalarını inkişaf etdirmələrinə imkan verməli və bunu təmin etməlidirlər.**

**Tövsiyələr:**

Hüquqi tənzimləmələr və inzibati qaydalar tələbələrin ehtiyaclarının müxtəlifliyini əks etdirmək üçün təhsil proqramlarının hazırlanması, təşkili və tətbiqində yetərli çevikliyə imkan verməlidir. Ali təhsil müəssisələri müxtəlif tələbə kontingentinin ehtiyaclarını qarşılamaq üçün təhsilə tam və qismən cəlb olunmanı, çevik təhsilalma formalarını, qarışıq və distant təhsili təşkil etməyi, eləcə də öncəki təhsilin tanınmasını (ÖTT) təmin etməlidirlər.

Dövlət orqanları ali təhsildə öncəki qeyri-formal və informal təhsilin tanınmasını (ÖTT) təşviq etməlidir, çünki bu, əlçatanlıq, keçid və bitirmə, bərabərlik və inklüzivlik, mobillik və məşğulluq imkanlarının genişləndirilməsi üzərində müsbət təsirə malikdir. ÖTT bütün təhsil sektorunda, o cümlədən ali təhsildə ömürboyu öyrənmənin çevik modellərini mümkün edir. ÖTT-nin tətbiq edilməsi ali təhsil sistemi, işəgötürənlər və geniş ictimaiyyət arasında səmərəli əməkdaşlıq tələb edəcək və bunu təmin etmək üçün milli kvalifikasiya çərçivələri təlim nəticələrinin və etibarlı keyfiyyət təminatı prosedurlarının şəffaf şəkildə tanınmasına kömək etməlidir.

3. **Bütün təhsil sisteminin inklüzivliyi - məktəbəqədər təhsildən başlayaraq, məktəbdən ali təhsilə və ömürboyu təhsilə qədər ardıcıl siyasətlər hazırlanmaqla təkmilləşdirilməlidir.**

**Tövsiyələr:**

Bərabərliyi, müxtəlifliyi və inklüzivliyi təşviq edən və daha geniş ictimaiyyətin ehtiyaclarına cavab verən, bütün təhsil sektorunu əhatə edən inklüziv mühiti yaradan siyasi tədbirlər hazırlamaq üçün bütün təhsil səviyyələri və əlaqəli siyasət sahələri (maliyyə, məşğulluq, səhiyyə və sosial rifah, yataqxana, miqrasiya və s.) ilə sinerji yaratmaq vacibdir.

Sosial ölçü siyasətləri yalnız mövcud tələbələrə deyil, həm də abituriyentlərə (potensial tələbələrə) onların hazırlığı və ali təhsilə keçidi üçün dəstək olmalıdır. Ali təhsilə cəlb olunma ömürboyu təhsil seçiminə malik olmalıdır və bu seçim həyatının sonrakı mərhələlərində ali təhsilə qayıtmaq və ya ali təhsil almaq qərarına gələn yetkinləri də əhatə etməlidir. İnklüziv yanaşma ali təhsilə aparan yolları birgə yaratmaq üçün daha geniş icmaları, ali təhsil müəssisələrini və digər maraqlı qrupları cəlb etməlidir.

Ali təhsil üçün müəllimlərin hazırlanmasında bərabərlik, müxtəliflik və inklüzivlik əsas rol oynamalıdır.

4. **Etibarlı məlumatlar ali təhsilin sosial ölçüsünün elmi əsaslı təkmilləşdirilməsi üçün zəruri ilkin şərtdir. Ali təhsil sistemləri milli qanunvericilik sisteminin xüsusiyyətlərini nəzərə almaqla, müəyyən növ məlumatların toplanmasının məqsəd və vəzifələrini müəyyən etməlidir. Ali təhsilin sosial ölçüsünü informasiya ilə təmin etmək və dəstəkləmək üçün bu cür məlumatları toplamaq, emal etmək və istifadə etməyə imkan verən adekvat potensiallar inkişaf etdirilməlidir.**

**Tövsiyələr:**

Səmərəli siyasətlərin işlənib hazırlanması üçün davamlı olaraq ölkə üzrə məlumatların toplanması zəruridir. Milli qanunvericilik sistemi çərçivəsində bu cür məlumatların toplanması tələbə kontingentinin tərkibi, əlçatanlıq və təhsildə iştirak, ali təhsili bitirənlər və yarımçıq buraxanlar, o cümlədən təhsili başa vurduqdan sonra əmək bazarına keçid haqqında məlumat verməli və həssas, əlverişsiz şərtlərdə olan və zəif təmsil olunan qrupların müəyyən edilməsinə imkan verməlidir.

Sosial ölçüyə uyğun olan inzibati məlumatların toplanması, toplanmış bu cür məlumatların beynəlxalq səviyyədə müqayisə oluna bilinməsi üçün kateqoriyalar üzrə iş Eurostudent və ya oxşar sorğular vasitəsilə AATM səviyyəsində formalaşdırılmalıdır. Prosesin rasionallaşdırılması və dövlət strukturları və ali təhsil müəssisələri üzərində inzibati iş yükünün azaldılması məqsədi ilə qeyd olunan məlumatların toplanması mövcud milli təcrübələri və müvafiq məlumat toplama proseslərini nəzərə almalıdır.

Bu cür milli məlumatların toplanması ilə bağlı fəaliyyətlər uyğun olduqda və zəruri hallarda əlavə sorğular, tədqiqatlar və təhlillər aparmaqla ali təhsil müəssisələri tərəfindən tamamlana bilər; beləliklə təhsildə həssas, əlverişsiz şərtlərdə olan və zəif təmsil olunan qrupları, eləcə də tələbələrin təhsil sistemi üzrə keçidlərini daha yaxşı başa düşmək olar.

5. **Dövlət hakimiyyəti orqanları ali təhsil müəssisələrinə abituriyentlərin və qeydiyyatdan keçmiş tələbələrin ali təhsilə giriş, təhsil almaq və təhsili uğurla bitirmə imkanlarını genişləndirmək üçün effektiv məsləhət və bələdçi ilə təmin etməyə imkan verən, siyasətlərə malik olmalıdır.** Bu xidmətlər müxtəlif təhsil səviyyələri, təhsil müəssisələri arasında və əmək bazarına keçidlərə xüsusi diqqət göstərməklə bütün təhsil sistemi üzrə əlaqəli olmalıdır.

**Tövsiyələr:**

Dövlət orqanları sinerji yaratmaq və oxşar xidmətlərin təkrarlanmasına yol verməmək üçün məsləhət və bələdçi xidmətləri göstərən müxtəlif dövlət qurumları ilə ali təhsil müəssisələri arasında əməkdaşlığın təmin olunmasına şərait yaratmalıdır. Bu xidmətlər aydınlıq və istifadəçi üçün əlverişlilik prinsiplərini dəstəkləməlidir, çünki tələbələr onları asanlıqla başa düşə bilməlidirlər.

Müxtəlifliyə malik tələbə kontingenti daxilində fiziki və psixoloji sağlamlıq problemləri olan tələbələrə xüsusi diqqət yetirilməlidir. Bu tələbələr ali təhsilə girişdə və bitirmə zamanı öz uğurlarını təminat altına almaq üçün peşəkar dəstəyə malik olmalıdırlar. Təhsilin təşkili və tələbələrin yaşayış şəraiti ilə bağlı yarana biləcək psixoloji problemlərin önlənməsinə xüsusi diqqət yetirilməlidir.

Dövlət orqanları həmçinin ali təhsilə girişdə və ya təhsilalma prosesi zamanı yarana biləcək hüquq bərabərliyi məsələlərində və ya təhsilin başa çatmasını çətinləşdirən problemlərlə bağlı istənilən münaqişələrdə vasitəçilik etmək qabiliyyətinə və biliyə malik olan ombudsman tipli institutların yaradılmasını nəzərdən keçirməlidirlər.

6. **Dövlət orqanları ali təhsil müəssisələrinə müxtəlifliyi ehtiva etmək və ali təhsildə bərabərlik və inklüzivliyə töhfə vermək üçün adekvat potensial yaratmaq imkanı verən yetərli və dayanıqlı maliyyələşməni və maliyyə muxtariyyətini təmin etməlidir.**

**Tövsiyələr:**

Ali təhsilin maliyyələşməsi sistemləri ali təhsilin sosial ölçüsü ilə bağlı strateji məqsədlərə nail olmağa kömək etməlidir. Ali təhsil müəssisələri xüsusilə həssas, əlverişsiz şərtlərdə olan və zəif təmsil olunan qrupların ali təhsilə əlçatanlığının genişləndirilməsi, ali təhsil alan və təhsilini başa vuranların sayının artırılması ilə bağlı razılaşdırılmış hədəflərə çatmaq üçün dəstəklənməli və mükafatlandırılmalıdırlar. Bu hədəflərə nail olmaq mexanizmləri ali təhsil müəssisələrinin əsas maliyyələşməsi üçün mənfi maliyyə nəticələri yaratmamalıdır.

Maliyyə dəstəyi sistemi bütün tələbələrə universal şəkildə tətbiq oluna bilməlidir, lakin bu mümkün olmadıqda, dövlətin tələbələrə maliyyə dəstəyi sistemi, ilk növbədə, ehtiyac əsaslı olmalı və ali təhsili bütün tələbələr üçün maddi baxımdan əlçatan etməli, ali təhsilə girişi təşviq etməli və ali təhsildə uğur qazanmaq imkanlarını təmin etməlidir. Onlar başlıca olaraq təhsilin həm birbaşa xərclərinin (təhsil ödənişləri və tədris materialları), həm də dolayı xərclərinin (məsələn, artan mənzil, yaşayış və nəqliyyat xərcləri səbəbindən AATM-də tələbələr üçün getdikcə daha problemli hala gələn yerləşmə xərcləri) qarşılanmasına töhfə verməlidirlər.

**7. Dövlət orqanları ali təhsil müəssisələrinə daha böyük müxtəlifliyə malik olan tələbə və akademik heyətin ehtiyaclarına cavab verən potensialın gücləndirilməsində və inklüziv öyrənmə mühitləri və inklüziv institutsional mədəniyyətlər yaratmaqda kömək etməlidirlər.**

**Tövsiyələr:**

Dövlət orqanları akademik və inzibati heyətin müxtəlifliyə malik tələbə kontingenti və heyət ilə peşəkar və bərabər şəkildə işləməsi imkanı verən ilkin və fasiləsiz peşəkar təlimini inkişaf etdirmək üçün ali təhsil müəssisələrinə dəstək verməli və onları adekvat vəsaitlə təmin etməlidir.

Mümkün olduğu zaman, xarici keyfiyyət təminatı sistemləri ali təhsil müəssisələrinin muxtariyyət prinsipinə hörmət etməklə sosial ölçü, müxtəliflik, əlçatanlıq, bərabərlik və inklüzivliyin ali təhsil müəssisələrinin institutsional missiyalarında necə əks olunduğuna diqqət yetirməlidirlər.

**8. Ali təhsildə beynəlxalq mobillik proqramları müxtəlifliyi, bərabərliyi və inklüzivliyi təşviq edəcək şəkildə strukturlaşdırılmalı və həyata keçirilməlidir və xüsusilə həssas, əlverişsiz şərtlərdə olan və zəif təmsil olunan təbəqələrdən olan tələbələrin və heyətin iştirakını təşviq etməlidir.**

**Tövsiyələr:**

Təhsil mobilliyi vasitəsilə beynəlxalq təcrübələr ali təhsildə təlim nəticələrinin keyfiyyətini artırır. Dövlət orqanları və ali təhsil müəssisələri milli və beynəlxalq təhsil və təlimlə bağlı mobillik proqramlarının təklif etdiyi təhsil imkanlarına hamının bərabər çıxışını təmin etməli və həssas, əlverişsiz şərtlərdə olan və zəif təmsil olunan qrupları və işçi qrupları üçün mobillik qarşısında duran çətinlikləri fəal şəkildə həll etməlidirlər.

Dövlət orqanları və ali təhsil müəssisələri AATM-də qrant və kreditlərin tam daşına bilinməsi də daxil olmaqla, fiziki mobilliyə verilən dəstəyə əlavə olaraq, qarışıq mobilliyi dəstəkləmək və beynəlxalq onlayn əməkdaşlıq məsələlərini kurslara daxil etməklə evdə beynəlmiləlləşməni təşviq etmək üçün informasiya və kommunikasiya texnologiyalarından (İKT) istifadəni asanlaşdırmalıdırlar. Qarışıq mobillik fiziki mobillik dövrü ilə onlayn öyrənmə dövrünün birləşməsidir. Bu cür onlayn əməkdaşlıq təlim nəticələrini genişləndirmək və fiziki mobilliyin təsirini artırmaq üçün istifadə edilə bilər, məsələn, daha çox fərqliliyə malik iştirakçılar qrupunu bir araya gətirməklə və ya daha geniş mobillik seçimləri təklif etməklə.

**9. Ali təhsil müəssisələri cəmiyyətin ali təhsilə elə cəlb edilməsini təmin etməlidir ki, müxtəlifliyi, bərabərliyi və inklüzivliyi təşviq etsinlər.**

**Tövsiyələr:**

İctimaiyyətin ali təhsilə cəlb edilməsi ali təhsil müəssisələrinin xarici maraqlı tərəflərlə qarşılıqlı faydalı birgə fəaliyyətləri həyata keçirdiyi bir proses kimi nəzərdən keçirilməlidir. Sosial ölçü siyasətləri kimi, maraqlı tərəflərin ali təhsildə iştirakı da ali təhsilin əsas missiyalarına daxil edilməlidir. Bu, tədris və öyrənmə, tədqiqat, xidmət və bilik mübadiləsi, tələbələr və heyət və ali təhsil müəssisələrinin idarə edilməsi ilə qarşılıqlı əlaqəni ehtiva etməlidir. Belə qarşılıqlı fəaliyyət universitetlərin tədris, tədqiqat və digər əsas funksiyalarını zənginləşdirərək həssas, əlverişsiz şərtlərdə olan və zəif təmsil olunan qrupların ehtiyaclarını da ehtiva etməklə geniş spektrli sosial ehtiyacları qarşılaya bilməsi üçün vahid əsaslar yaradır.

Cəmiyyətdəki maraqlı tərəflər (yerli hakimiyyət orqanları, mədəniyyət təşkilatları, qeyri-hökumət təşkilatları, sahibkarlar, vətəndaşlar) açıq dialoq vasitəsilə ali təhsil subyektləri ilə anlamlı qarşılıqlı əlaqə qura bilməlidirlər. Bu, sosial və demokratik problemləri effektiv şəkildə həll edə bilən həqiqi universitet-cəmiyyət tərəfdaşlığına imkan verəcəkdir.

**10. Dövlət orqanları yuxarıda göstərilən prinsip və tövsiyələrin həm milli sistemdə, həm də institutsional səviyyədə necə tərcümə edilib və tətbiq edilə biləcəyi ilə bağlı ali təhsil müəssisələri və digər müvafiq maraqlı tərəflərlə siyasi dialoqu aparmalıdır.**

**Tövsiyələr:**

Bu cür siyasi dialoq institutsional muxtariyyətə hörmət edən, hər hansı lüzumsuz inzibati yükdən qaçan və beləliklə, ali təhsildə müxtəliflik, bərabərlik və inklüzivliyə doğru konkret irəliləyişi təmin edən müvafiq siyasi tədbirlərin inkişaf etdirilməsinə imkan verməlidir.

Yuxarıda göstərilən prinsiplər və tövsiyələr çərçivəsində, AATM ölkələri arasında qarşılıqlı dəstək və müsbət təcrübə mübadiləsi ali təhsil sistemlərinin inklüzivliyinə doğru irəliləyişi asanlaşdırmaq üçün çox vacibdir.

# Terminlər və anlayışların izahı

*Bu sözlük sənəddə olan üç əsas termini - zəif təmsil olunan, əlverişsiz şərtlərdə olan və həssas tələbələr izah edir. Təriflər hüquqi izahlar kimi başa düşülməməlidir və buna görə də heç bir mövcud hüquqi tənzimləmə ilə ziddiyyət təşkil etmir, əksinə Prinsiplərin və Tövsiyələrin məzmunu ilə bağlı izahedici anlayışlar kimi nəzərdə tutulub.*

**Zəif təmsil olunan tələbələr:**
Tələbələr qrupunun tələbələr arasındakı payı müəyyən xüsusiyyətlərə görə (məsələn, cins, yaş, milliyyət, coğrafi mənşə, sosial-iqtisadi mənsubiyyət, etnik azlıqlar) müqayisə olunan qrupun əhalinin ümumi sayındakı payından aşağıdırsa, bu qrup zəif təmsil olunmuş hesab edilir. Bu, qəbul zamanı, təhsil prosesi müddətində və ya məzun olduqda sənədləşdirilə bilər. Fərdlər adətən bir neçə zəif təmsil olunma xüsusiyyətlərinə malikdirlər, buna görə də zəif təmsil olunma xüsusiyyətlərinin kombinasiyaları ("qruplararası bağlılıq") həmişə nəzərə alınmalıdır. Bundan əlavə, zəif təmsilçilik ali təhsilin müxtəlif səviyyələrinə də – təhsil proqramı, fakültə və ya departament, ali təhsil müəssisəsi, ali təhsil sistemi - təsir göstərə bilər.
Bu tərif "bütün səviyyələrdə ali təhsilə qəbul olan, təhsil alan və bitirən tələbə kontingenti bizim əhalimizin müxtəlifliyini əks etdirməlidir" kimi müəyyən edilən London Bəyanatını tamamlayır, lakin onu tam ehtiva etmir.

**Əlverişsiz şərtlərdə olan tələbələr:**
Əlverişsiz şərtlərdə olan tələbələr ali təhsildə həmyaşıdları ilə müqayisədə tez-tez xüsusi problemlərlə üzləşirlər. Bu, müxtəlif formalarda ola bilər (əlillik, az təminatlı ailə, ailə dəstəyinin az olması və ya olmaması, valideyinlərin olmaması, çox məktəb dəyişmə, psixi sağlamlıq, hamiləlik, işləmək məcburiyyəti və ya baxıcılıq vəzifəsi olduğu üçün oxumağa daha az vaxtın olması). Əlverişsiz şərtlər daimi ola bilər, zaman-zaman yarana və ya yalnız məhdud müddət ərzində baş verə bilər. Əlverişsiz şərtlərdə olan tələbələr zəif təmsil olunan qrupun bir hissəsi ola bilər, lakin bu məcburi deyil. Buna görə də əlverişsiz şərtlərdə olan və zəif təmsil olunan anlayışları sinonim deyillər.

**Həssas tələbələr:**
Həssas tələbələr əlverişsiz şərtlərə düşmə riski altında ola bilər (yuxarıya bax) və bundan əlavə, onların xüsusi (müdafiə) ehtiyacları vardır. Məsələn, bu şəxslər xəstəlikdən (o cümlədən psixi sağlamlıqdan) əziyyət çəkdiklərinə və ya əlil olduqlarına , yetkinlik yaşına çatmadıqlarına , yaşayış icazəsi təhsillərinin müvəffəqiyyətindən (və beləliklə də ayrı-ayrı müəllimlərin qəbul etdiyi qərarlardan) asılı olduğuna görə ayrı-seçkiliyə məruz qalma riski altındadırlar. Bu tələbələr şəxsi rifahlarını təmin edə və ya özlərini zərər və ya istismardan qoruya bilməyəcəkləri anlamında əlavə dəstəyə və ya diqqətə ehtiyac duyurlar.

Co-funded by
the European Union

This translation is co-funded by the European Union. Views and opinions expressed are however those of the author(s) only and do not necessarily reflect those of the European Union or the European Education and Culture Executive Agency (EACEA). Neither the European Union nor EACEA can be held responsible for them.

EUROPEAN
Higher Education Area

bologna
process

ITALIAN **BFUG** SECRETARIAT
**2018-2020**